**«Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 fevral tarixli 1963 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı»nın yerinə yetirilməsi və bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə adı çəkilən dövlət orqanları qeyd olunmuş icra müddətinədək tədbirlərin həyata keçirilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN SƏRƏNCAMI

1. «Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 fevral tarixli 1963 nömrəli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı»nın yerinə yetirilməsi və bu sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi məqsədi ilə adı çəkilən dövlət orqanları qeyd olunmuş icra müddətinədək aşağıdakı tədbirləri həyata keçirsinlər:

1.1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə 2007-ci ilin may ayınadək "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununa və onun tətbiqi haqqında Əsasnaməyə əlavələr və dəyişikliklər edilməsinə dair layihələrin hazırlanmasını;

1.2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə 2009-cu ilin iyul ayınadək "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununa və onun tətbiqi haqqında Əsasnaməyə əlavələr və dəyişikliklər edilməsinə dair layihələrin hazırlanmasını;

1.3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə 2007-ci ilin iyul ayınadək "Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin xüsusi sənədləri haqqında Əsasnamə"yə əlavələr və dəyişikliklər edilməsinə dair layihənin hazırlanmasını;

1.4. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti, Xarici İşlər Nazirliyi, Ədliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə 2009-cu ilin iyul ayınadək "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsinə dair layihənin hazırlanmasını:

1.5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Dövlət Sərhəd Xidməti, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, Ədliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə

birgə 2009-cu ilin iyul ayınadək "Azərbaycan Respublikasında immiqrant statusunu təsdiq edən sənədin formasının təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsinə dair layihənin hazırlanmasını;

1.6. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə 2007-ci ilin iyul ayınadək "Dövlət daktiloskopik qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsinə dair layihənin hazırlanmasını;

1.7. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə 2007-ci ilin iyul ayınadək "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsinə dair layihənin hazırlanmasını;

1.8. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Dəniz Administrasiyası, Ədliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə 2007-ci ilin may ayınadək "Dənizçi pasportu haqqımda Əsasnamə"nin layihəsinin hazırlanmasını;

1.9. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə 2007-ci ilin iyul ayınadək "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanmasını;

1.10. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi, Daxili İşlər Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutu aidiyyəti dövlət orqanları ilə birgə 2007-ci ilin iyul ayınadək "Biometrik informasiya haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanmasını.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Xarici İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Nəqliyyat Nazirliyi, Səhiyyə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Xüsusi Dövlət Mühafizə Xidməti, Nazirlər Kabineti yanında Dövlət Dəniz Administrasiyası, Dövlət Mülki Aviasiya Administrasiyası, «Azərbaycan Hava Yolları» Dövlət Konserni, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Milli Elmlər Akademiyasının İnformasiya Texnologiyaları İnstitutu, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 29 iyun tarixli 120s nömrəli sərəncamı ilə (2005-ci il 23 may tarixli 133s nömrəli sərəncamı ilə edilmiş düzəlişlərlə) yaradılmış Əlaqələndirmə Şurası aidiyyəti dövlət orqanları ilə birgə: i[1]

2.1. «Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı»nda nəzərdə tutulmuş müddətlərdə təşkilati-texniki tədbirləri həyata keçirsinlər;

2.2. «Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı»ndan irəli gələn məsələləri həll etsinlər;

2.3. «Azərbaycan Respublikasında biometrik eyniləşdirmə sisteminin yaradılması üzrə 2007-2012-ci illər üçün Dövlət Proqramı»nın yerinə yetirilməsi ilə əlaqədar görülən işlərin vəziyyəti barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat təqdim etsinlər.

3. Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 22 fevral 2007-ci il

№ 47s

**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

1. 21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009-cu il, №01, maddə 32)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

**i[1]**21 yanvar 2009-cu il tarixli **12** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **(AzərbaycanRespublikasınınQanunvericilikToplusu, 2009-cu il, №01, maddə 32)** ilə 2-ci bəndində "**Agentliyi**" sözü "**Komitəsi**" sözü ilə əvəz edilmişdir.